

■ Akif Cabbarlı

# "...Sevgiyə, sevdaya vətəndir könlüm"

Gəray Fəzli imzası orta və yaşlı nəslin yaxşı yadındadır. Böyük Vətən Müharibəsindən salamat çıxmış ziyalılar arasında onun da adı xüsusi çəkilir - nasir şair, publisist, televiziya və radio jurnalisti kimi. Sağlam əqidəli, səmimi, qayğıkeş, prinsipial, mərd bir insan, vətəndaş idi Gəray müəllim. Mən onu sıradan bir şair, söz adamı kimi tanımırdım. 70 illik ömründə Gəray müəllim çox məshuldar yaradıcılıq yolu keçmiş, şərəfli bir həyat sürmüşdür. Hələ 17 yaşı tamam olmamış ürəyinin hökmü ilə cəbhəyə yollanmış, ağır döyüşlərdən çıxmış, yaralanıb hospitallarda müalicə almışdır. Ordudan tərxis olunduqdan sonra Pedeqoji İnstitutda təhsilini davam etdirmişdir. 1953-1957-ci illərdə Qax rayonunda müəllimlik etmişdir. 1957-ci ildən ömrünün sonunadək Azərbaycan Televiziyası və Radiosunda müxtəlif vəzifələrdə çalışmışdır. Ədəbi fəaliyyətə gənc yaşlarından başlayan Gəray müəllim "Ölkəm", "Mənim səsim", "Təzə ünvan", "İldırımlı dağlar", "Kəhrəba işığında", "Səadətin ünvanı", "Yeddi ulduzlu səma", "Gecə günəşi", "Bir qəlbin asimanı", "Xatirəli dünyam", və s. kitabları ilə oxucuların görüşünə gəlmişdir. "Portret cizgiləri" seriyasından sənədli povestlər, oçerklər yazan Gəray müəllim 1991-ci ildə "Hikmət" , 1992-ci ildə "Axtarış", 1993-cü ildə isə "Kəndin səsi" qəzetlərinə redaktorluq etmişdir.

1952-ci ildən Azərbaycan Yazıçılar İttifaqının üzvü olan Gəray Fəzlinin əsərləri ədəbi ictimaiyyətin, məşhur söz adamlarının diqqətini çəkir, layiqli qiymətini alırdı. Səməd Vurğun, Mirzə İbrahimov, Rəsul Rza, Süleyman Rüstəm, Məmməd Rahim, Bəxtiyar Vahabzadə onun əsərləri haqqında ölkə mətbuatında müsbət rəylərini bildirmişdirlər. Gəray Fəzlinin şair və yazıçı dostları arasında Qabilin, Əliağa Kürçaylının, Nəriman Həsənzadənin, Novruz Gəncəlinin, Atif Zeynallının adlarını çəkmək istərdim. Gəray müəllim hörmətli şairin xatirinə öz oğluna Qabilin adını vermişdi. Nəriman Həsənzadə dostunun şərəfinə "itirilmiş səs" poemasını yazmışdı.




Gəray müəllim məlum səbəbdən zəngin iç dünyasından gələn şeirlərini, əsərlərini kürsülərdən oxuya bilməsə də onun sözlərinə yazılmış mahnılarını Zeynəb Xanlarova, Rübabə Muradova, Şövkət Ələkbərova, Yalçın Rzazadə kimi korifeylər, Hüseynağa Hadıyev, Təranə Vəlizadə və başqa tanınmış sənətkarlar oxudular. Azərbaycan Televiziyası və Radiosunun fondunda qorunub saxlanan verilişlərdə tez-tez Gəray Fəzli poeziyasına müraciət olunur, onun sözlərinə yazılmış mahnılar səslənir.

Sonda Gəray müəllimin həyata, gələcəyə ünvanlanan, onun yaradıcılıq bioqrafiyasının fəlsəfəsini ortaya qoyan misraları oxucuların diqqətinə çatdırmaq istərdim...

*Özüm də sirrini bilmirəm nədir -*
*Bir dərya etibar bir ümman səbir -*
*Elə bil tək mənim ürəyimdədir...*
*Səmadır, səhradır, çəməndir könlüm,*
*Sevgiyə, sevdaya vətəndir könlüm.*

* * *

*Ona Füzulidən ariflik qalıb,*
*Leylinin eşqindən zəriflik qalıb,*
*Hələ çəkilməyən neçə yük qalıb...*
*Demirəm hər yükü çəkəndir könlüm,*
*Yalnız el yükünə vətəndir könlüm.*

* * *

*Yadlar məclisində görünən deyil,*
*Özgə qapısında sürünən deyil,*
*Naxələf kürkünə bürünən deyil...*
*Alçalsa özünə kəfəndir könlüm,*
*Əzmə, dəyanətə vətəndir könlüm.*



Kaspi.-2016.-3-5 dekabr.-S.20.